## AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

# Təbiət Tarixi Muzeyi

https://science.gov.az/az/forms/organizatsii-pri-prezidiume/3800

Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"da milli-mənəvi dəyərlərin qorunması ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına uyğun prioritet elmi istiqamət kimi müəyyən edilib. Yer Elmləri Bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Fəxrəddin Qədirov bildirib ki, Təbiət-Tarixi Muzeyinin əsası 1920-ci ildə qoyulub.

Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli Fərmanına əsasən Təbiət Tarixi Muzeyi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmişdir.

Hazırda İnstitutun baş direktoru Tariyel Eybətov, icraçı direktoru isə Obrik Zeyniyevdir.

**Muzeyin əsas fəaliyyət istiqamətləri:**

**1.** Paleontologiya. Azərbaycanda qazıntı halında tapılan onurğalıların öyrənilməsi. Azərbaycanın paleontoloji muzeyinin atlasının yaradılması.

**2.** Arxegeologiya. Yeni elm sahəsi.Geoloji proseslərin insanın təkamülündə bir başa və dolayı yollarla təsirini oyrənir.

**3.** Arxezoologiya. Arxegeologiyanın tərkib hissəsidir. Azərbaycanın və ətraf ərazilərdə arxeolojı tədqiqatlar nəticəsində tapılan sümüklərin və dişlərin təyinatı, qədim insan tərəfindən istifadə olunan vəhşi və əhilləşdirilmiş heyvanların öyrənilməsi.

**4.** Ekologiya və Morfologiya. Xəzər suitisinin təkamülü, ekologiyası və morfologiyası (Abşeron yarımadasının şimal sahilərində 52 illik tələfat monitorinqi).

**5.** Paleogenetika. Qazıntı halında tapılan sümüklərdən, dişlərdən və bitkilərdən DNT-nin alınması metodlarının öyrənilməsi və nüvə, mitoxondri və Y xromosomlar vasitəsilə canlıların növ mənsubiyyətinin təyinatı və təkamül baxımından təhlili. Molekulyar xüsusiyyətlərinin əsasında orqanizmlərin bənzərliklərinin və fərqliliklərinin aşkarlanması.

**6.** Botanika. Bitkilərin təkamülü, müxtəlifliyi və ekologiyası.

**7.** Təhsil və maarifçilik. (biologiya üzrə qəbul proqramlarının, testlərin və dərs vəsaitlərinin yazılması, məktəb dərsliklərinin monitorinqi). Muzeydə seminarların və

prezentasiyaların keçirilməsi. Ekskursiyaların təşkili. Mas-Mediya ilə əməkdaşlıq: qəzet, jurnal, radio və TV – vasitəsilə muzeyin elmi - maarifçilik nailiyyətlərinin təbliği.

**8.** Muzey kolleksiyalarının zənginləşdirilməsi. Yeni müqəvvaların və tədris preparatlarının hazırlanması; müasir və qazıntı halında tapılan canlıların skeletlərinin yığılması, tapılan nümunələrin süxurlardan təmizlənməsi, muzeyin fonduna daxil edilməsi.

**Şöbə və laboratoriyalar:**

**1.** Onurğalı heyvanlar şöbəsi.
**2.** Ekskursiya və turizm şöbəsi.
**3.** Bərpa şöbəsi.
**4.** Təkamül biologiyası şöbəsi.
**5.** DNT şöbəsi.
**6.** Geoxronoloji Tarix şöbəsi.
**7.** Fond materialları şöbəsi.

## STATİSTİK MƏLUMATLAR

### Təbiət Tarixi Muzeyi

